*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 22 (661)
15 noyabr 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# XANKƏNDİDƏ SİLAHLI QÜVVƏLƏRİMİZİN HƏRBİ PARADI KEÇİRİLİB

Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.

Dövlətimizin başçısı paradda çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz hərbçilər, mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham Əliyev:** Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.

Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi və mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üzüzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.





Qırx dörd gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim döndərə bilməzdi və mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.



O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada - Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda, bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu, sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın-Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah-sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada - Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişik. Yəni, hazırlıq işləri apararkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.

***Davamı 2-ci səhifədə.***

# Nazir Vilayət Eyvazov Ağcabədidə vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 31-də və noyabrın 1-də Ağcabədi Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Ağcabədi şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Ağdam, Bərdə, Laçın, Zərdab və Ağcabədi şəhər və rayonlarından qəbula gələn 96 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ağcabədidə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və kazarma-məişət şəraiti ilə maraqlanıb.

Sonra Daxili işlər nazirinin rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Sonda general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 42-si





Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 202 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

# XANKƏNDİDƏ SİLAHLI QÜVVƏLƏRİMİZİN HƏRBİ PARADI KEÇİRİLİB

***Əvvəli 1-ci səhifədə.***

Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.




Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni, biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın.

Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham Əliyev:** Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

**Hərbçilər:** Qarabağ Azərbaycandır!

**x x x**

Azərbaycan Prezidentinin çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi başlayıb.

Qeyd edək ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlılarının parad heyəti Daxili qoşunlar komandanının 1-ci müavini - qərargah rəisi general-mayor Tofiq Hüseynovun başçılığı ilə Xankəndi şəhərinin mərkəzi meydanından keçib.

**"president.az" saytının materialları əsasında hazırlanıb.**

# XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Noyabrın 11-də Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.





Təbrikdə, həmçinin xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# ƏTRAF MÜHİTİN KEŞİYİNDƏ...

## Əməkdaşlarımız ağacəkmə aksiyası keçiriblər




Daxili işlər orqanlarının əməkdaşları tərəfindən ətraf mühitin qorunması, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması məqsədilə davamlı olaraq ağacların əkilməsi və onlara qulluq göstərilməsi işi aparılır.

Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları Zəfər Günü ilə bağlı növbəti ağacəkmə aksiyası keçiriblər.

Seçilmiş ərazilərdə bölgənin iqlim şəraitinə uyğun eldar şamları və zeytun ağacları əkilib. Ağaclara aqrotexniki qaydada qulluq göstərilib, ərazi alaq otlarından təmizlənərək budama və suvarma işləri aparılıb. Onların küləkdən qorunması və normal böyümələri üçün qoruyucu dirəklər basdırılıb.

**DİN-in Mətbuat xidməti**

# FÖVQƏLADƏ HADİSƏLƏRİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI ÜZRƏ TAKTİKİ TƏLİM KEÇİRİLİB

Naxçıvan şəhərindəki fəaliyyəti dayandırılmış Şüşə qablar zavodunun ərazisində "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin və qarşılıqlı fəaliyyətin təşkili. Zədələnmə ocaqlarında axtarış-xilasetmə, qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması" mövzusunda taktiki təlim keçirilib. Taktiki təlimdə Muxtar Respublikanın Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə alayının, Xüsusi Riskli Xilasetmə Xidmətinin, Naxçıvan Şəhər Dövlət Yanğından Mühafizə Hissəsinin, MR-in Daxili İşlər Nazirliyinin, Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin şəxsi heyəti, MR-in Səhiyyə Nazirliyinin, "Naxçıvan Dəmir Yolları" MMC-nin və digər qurumların əməkdaşları iştirak ediblər. Təsdiq olunmuş müvafiq plan əsasında keçirilən təlimdə fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı müxtəlif qurumların praktiki fəaliyyətləri nümayiş etdirilərək onlar arasında qarşılıqlı əlaqənin düzgün qurulması məqamlarına xüsusi diqqət yetirilib.

12565 saylı hərbi hissənin təlimə cəlb olunan şəxsi heyəti təbii fəlakət rayonunda polis əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması, giriş-çıxışın məhdudlaşdırılması, səhra qospitalının və sahibsiz qalmış əmlakların mühafizəsi, bununla yanaşı, axtarma qrupu zərərçəkmiş vətəndaşların xidməti itlərlə axtarılması, ehtiyat qrupu talançılıqla məşğul olanların zərərsizləşdirilməsi, istehkam qrupu Mülki müdafiə alayının pirotexniki taqımı ilə qarşılıqlı şəkildə ərazilərin partlamamış sursatlardan təmizlənməsi tapşırıqlarını yerinə yetirib.







Hərbi qulluqçularımız təlimin gedişində yüksək döyüş və mənəvi-psixoloji hazırlıqları, çeviklik göstərmələri, peşə bacarıqları, eləcə də nizam-intizamları ilə fərqləniblər.

**12565 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

3_Layout 1 14.11.2023 10:01 Page 1



# BİRLƏŞDİRƏN, BÜTÖVLƏŞDİRƏN ZƏFƏR

## Tarixi ədalət ordumuzun gücü, Ali Baş Komandanın qətiyyəti ilə bərpa olundu



Noyabrın 7-də DİN-in Əlahiddə Çevik Polis Alayında Zəfər Gününün üçüncü ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları, polis əməkdaşları, veteranlar, həmçinin nazirliyin əməkdaşları iştirak ediblər. Tədbirin əvvəlində respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Himni səsləndikdən sonra çıxış edən Daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimiz, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiklərini vurğulayıb. Hərbi qulluqçularımızın Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiklərini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı şəxsi heyətdən 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 hərbi qulluqçunun "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, yüzlərlə hərbi qulluqçumuzun isə orden və medallarla təltif olunduğunu qeyd edib.

Nazir müavini Azərbaycanın apardığı Vətən müharibəsinin bir çox parametrləri – yüksək tempi, müasir texnikanın döyüş meydanında tətbiqi, əməliyyatların məharətlə idarə olunması, zabit və əsgərlərin döyüşkənliyi baxımından dünya hərb tarixinə 21-ci əsrin müharibəsi kimi yazıldığını bildirib. İ.Əliyev Vətən müharibəsində olduğu kimi, bu ilin sentyabr ayının 19-dan 20-dək keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı da



Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının, eləcə də polis əməkdaşlarının yüksək peşəkarlıq və qəhrəmanlıq nümunələri göstərdiklərini, şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır olduğunu deyib.

Daha sonra çıxış edən polkovnik Şahin Bəylərov, polis polkovniki Tural Novruzov və baş çavuş Surət Babayev ölkə başçısının xüsusi qayğısı ilə əhatə olunmuş şəxsi heyətin bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı daim doğrultmağa çalışacaqlarını diqqətə çatdırıblar.

Tədbirin sonunda Vətən müharibəsində əldə edilmiş qələbəyə həsr olunan "Zəfər meydanı" sənədli filmi nümayiş etdirilib.

**DİN-in Mətbuat xidməti**

*Şəhidlərimiz*

# SON NƏFƏSİNƏDƏK DÖYÜŞÇÜ MƏRAMINA SADİQ QALDI...

Hər bir müharibənin od-alovundan keçən ilk növbədə döyüşçüdür. Məhz onun cəsurluğu və fədakarlığı olmadan komandirin döyüş əmrinin uğurla yerinə yetirilməsi mümkün deyil. Ön cəbhənin bütün əzab-əziyyətinə dözən, sinəsini düşmən gülləsi və mərmisinə sipər edən də odur. Döyüşçünün Vətəni naminə ucalmağı özünə şərəf bildiyi iki müqəddəs məqam var - şəhidlik və qazilik. Biz belə oğullar yetişdirən və adını qalib olaraq tarixə yazdıran mübariz xalqın övladlarıyıq.

44 günlük Vətən müharibəsi və sonrakı antiterror tədbirləri nəticəsində qazanılan hərbi zəfər Şərqi Zəngəzur və Qarabağ bölgələrimizdə erməni işğalçılarının mövcudiyyətinə son qoyub. Onların həmin ərazilərimizdə qaldırdıqları əski parçası endirilərək döyüşçülərimizin ayaqları altına atılıb.

Qələbə yenilməzlik, qürur, ruh yüksəkliyi, başucalığı, mənəvi dirçəlişdir. Bizə bu möhtəşəmliyi və şanı bəxş edən oğullara ehtiramımız heç vaxt tükənməz.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində şəhid olan hərbi qulluqçularından biri də əsgər Surxayzadə Cahangir Hətəm oğludur. O, ləyaqətli ömür yaşayıb. Şəhidin ailə üzvləri və silahdaşları ilə əlaqə saxlayaraq onun haqqında verdikləri məlumatları qeydə aldım.

Cahangir 1996-cı il iyulun 9-da Tərtər rayonunun Qaynaq kəndində doğulub. Bu kənd Birinci Qarabağ müharibəsindən sonra uzun illər düşmənlə təmas xəttinin yaxınlığında yerləşib və davamlı olaraq atəşə tutulub. Yerli sakinlər müharibə reallığının hər üzünü öz həyatlarında görüblər. Ancaq onlar düşmən önündə məğrur dayanaraq öz yurdlarını tərk etməyiblər.

Hətəm Əliyev və İltifat Qaraşova Cahangirin valideynləridir. Qardaşı Babək Surxayzadə ondan bir yaş böyükdür. Ailə Qaynaq kəndində yaşayır. Vətənpərvər əqidəli və doğma el-obaya qırılmaz tellərlə bağlı olan bu ailədə boya-başa çatan, tərbiyə edilən Cahangir haqqında doğmaları maraqlı xatirələrini söylədilər. Onların sözlərinə görə, ailə dəyərlərinə hörmət bəsləyən, mənəviyyatı, səmimiyyəti, xeyirxahlığı, qayğıkeşliyi ilə fərqlənən gənc olub. Həyata baxışı, yaşıdları ilə ünsiyyəti, müxtəlif rəftarlarında böyük yaşda insana xas bəzi cəhətlər özünü büruzə verib. Vədini pozmayıb, yalanı bağışlamayıb, heç kəsin etibarını yanıltmayıb.

Şəhid Xəlil Əzimov adına Qaynaq kənd ümumi orta məktəbini bitirib. Orta məktəbdə tarix, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Yeniyetmə vaxtından idmana həvəslə yanaşıb. Boks isə bəyəndiyi idman növü idi. Məktəbli olduğu dövrdən hərbçi peşəsinə rəğbəti ailə üzvlərinin və müəllimlərinin diqqətindən yayınmayıb.

2014-cü ilin iyul ayında Cahangir Dövlət Sərhəd Xidmətinin sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Cəlilabad rayonunun Göytəpə şəhərindəki "N" saylı hərbi hissədə hərbi and içib. Valideynləri bu təntənəli mərasimdə iştirak edərək onunla görüşüblər. Sonra Yardımlı rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət keçərək cənub sərhədimizin keşiyində ayıq-sayıq dayanıb. Sərhədçi kimi hərbi xidmət borcunu vicdanla yerinə yetirib. Nümunəvi xidmətinə görə hərbi hissənin döyüş bayrağının yanında çəkilmiş fotoşəkli ilə mükafatlandırılıb. 2016-cı ilin yanvar ayında ehtiyata buraxılıb.



Bir neçə ay sonra - 2016-cı ilin noyabr ayının 2-də Cahangir öz arzusu ilə DİN-in Daxili Qoşunlarının tərkibinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Valideynləri onun bu qərarını dəstəkləyərək xeyir-dua veriblər.

Müddətdən artıq həqiqi hərbi xidməti 99713 saylı hərbi hissədə keçib. Xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcı-meteomüşahidəçisi vəzifəsinə təyin edilərək qısa müddətdə komandanlığın etimadını doğruldub. Komandirləri tərəfindən funksional vəzifələrinin öhdəsindən bacarıqla gəldiyinə, habelə yüksək döyüş və mənəvi-psixoloji hazırlığına görə müxtəlif mükafatlara layiq görülüb. Müsbət şəxsi keyfiyyətlərinə görə silahdaşlarının hörmətini qazanıb.

Məzuniyyətə buraxıldıqda ailəsinə baş çəkərkən hərbi xidmətindən razılıqla söhbət açıb, peşə seçimində yanılmadığını deyib. Ünsiyyətdə olduğu gəncləri hərbi xidmətə həvəsləndirib.

Komandirləri və döyüşçü yoldaşları olmuş hərbi qulluqçulara Cahangir haqqında suallar ünvanladım, onların məzmunlu cavabları onun xidmət və döyüş yolu ilə bağlı dolğun təsəvvür yaratdı. Vətən müharibəsi iştirakçıları, 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin sabiq komandiri, ehtiyatda olan polkovnik-leytenant Yavər Məmmədov və həmin hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrup komandiri gizir Tural Nəsmiyev tabeliklərində xidmət etmiş Cahangiri nizam-intizamlı, əzmkar, məsuliyyətli, işgüzar, xidmətə can yandıran, verilən tapşırıqların icrasında çeviklik göstərən, təhkim olunan silahdan sərrast atəş açan, xüsusi vasitələrdən düzgün istifadəni bacaran, fiziki hazırlığı ilə seçilən hərbi qulluqçu kimi xatırladıqlarını diqqətə çatdırdılar. Bildirdilər ki, o, dəstənin taktiki təlimlərində, həmçinin keçirilən məşğələlərdə fəal iştirak edib. Bununla yanaşı, Cahangirin beynəlxalq əhəmiyyətli idman yarışlarında ictimai qaydanın və təhlükəsizliyin mühafizəsi, habelə koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə xidmətə cəlb edildiyini məlumat verdilər.

Müsahiblərim xüsusi vurğuladılar ki, Vətən müharibəsi zamanı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin şəxsi heyətindən 3 nəfər şəhidlik zirvəsinə ucalıb. Onlardan biri Cahangirdir.

Qeyd edildi ki, dəstənin hərbi qulluqçuları 2020-ci il sentyabrın 27-dən oktyabrın 15-dək 16077 saylı hərbi hissədə yerləşiblər, orada döyüş tapşırıqlarının icrasına hazırlaşıblar. Bundan əlavə, Ağdam rayonunun ərazisində komendant xidmətinə çıxıblar. Oktyabrın 15-dən etibarən Füzuli rayonunun ərazisinə göndərilərək döyüş tapşırıqlarının icrasına başlayıblar. Həmin vaxt ön cəbhənin bütün istiqamətlərində şiddətli döyüşlər gedirdi. Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları da döyüş əməliyyatlarına qatılıblar. Əsgər C.Surxayzadə silahdaşları ilə birgə Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində və Şuşa şəhərinin ətrafında döyüş yolu keçib. Göstərilən istiqamətlərdə torpaqlarımızın azad edilməsi və müdafiəsi, işğalçıların diversiya-kəşfiyyat qruplarının əraziyə sızmasının qarşısının alınması, azad edilən yaşayış məntəqələrində gizlənmiş erməni hərbçilərinin zərərsizləşdirilməsi, düşmənin atılmış silah-sursatının, texnikasının axtarılaraq qənimət götürülməsi, o cümlədən digər döyüş tapşırıqları qarşıya qoyulub. Bu döyüş tapşırıqlarının yerinə yetirilməsində Cahangir cəsurluq və qətiyyət göstərib.

Noyabrın 9-da Şuşa şəhərinin girəcəyinə yaxın ərazidə düşmən artilleriyasının atəşi nəticəsində Cahangir mərmi qəlpələrindən ağır yaralanaraq şəhadətə yüksəlib.

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı baş əsgər Əsgər Məmmədov və həmin hərbi hissənin xüsusi təyinatlı dəstəsinin əməliyyat qrupunun atıcısı əsgər Polad Hacıyev də Vətən müharibəsi iştirakçılarıdır. Cahangirlə birlikdə xidmət edib və onun döyüşçü yoldaşları olublar. Əsgərin və Poladın dediklərinə görə, Cahangir hərbi kollektivdə ilk gündən silahdaşları ilə yaxşı münasibət qurub, onlara köməyini əsirgəməyib. Hərbi formanı qürurla daşıyıb, bilik və bacarıqlarını təkmilləşdirməyə çalışıb.

Ön cəbhəyə ruh yüksəkliyi ilə gedib. Silahdaşlarına deyib ki, torpaqlarımızda vəhşiliklər törətmiş erməni işğalçılarından qisasımızı alacağıq. Şuşanı, Xocalını, Ağdərəni görməyi arzulayıb. Ailə üzvlərinə ön cəbhədən etdiyi telefon zənglərində nikbin ovqatla danışıb, qələbə müjdəsini ondan gözləyiblər. Müharibənin sonuncu günü Şuşaya





göndərilən döyüşçünün şəhərə çatmasına çox az məsafə qalarkən bir neçə metrliyində mərmi partlayıb. Beləcə, orada şəhadət şərbətini içib.

3 saylı Bakı "ASAN xidmət" mərkəzi tərəfindən verilən 15 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Cahangirin 2020-ci il noyabrın 9-da Şuşada hərbi əməliyyat nəticəsində digər növ partlayışlarla və ya qəlpələrlə törənmiş zədələnmələr səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz 2020-ci il noyabrın 10-da Qaynaq kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər C.Surxayzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edim ki, Cahangirin babası Cəmil Qaraşov 1941-1945-ci illərdə alman faşistlərinə qarşı döyüşüb, 1983-cü il dekabrın 20-də dünyasını dəyişib. Qohumu, mülki sakin Həsən Məmmədov 2020-ci il oktyabrın 6-da Qaynaq kəndi ermənilər tərəfindən atəşə məruz qalarkən şəhid olub.

Qaynaq kəndinin 11 nəfər şəhidi var. Orada şəhidlərin xatirəsinə abidə və bulaq kompleksi yaradılıb. Kənd orta məktəbindəki tədris siniflərindən birinə Cahangirin adı verilib. Ailəsinin yaşadığı evdə döyüşçünün xatirə guşəsi düzəldilib.

Dövlət televiziya kanalında (AZTV), sosial şəbəkələrdə, dövri mətbuatda şəhidin ömür yolu işıqlandırılıb. Sevgi Polad qızının "Tarix yazanlar", Svetlana Bağırovanın "Tərtərin tarix yazan oğulları" kitablarında və "And yerimiz şəhidlər" nəşrində hərbi qulluqçumuz haqqında məqalələr yer alıb. Şəhidə şeirlər həsr olunub.

Cahangir subay idi, doğmaları qeyrətli və ailəcanlı oğul olaraq onun xoşbəxtliyini, toy gününü görməyi arzulayıblar. Ancaq taleyinə müharibə sınağı, şəhadət imtahanı, xatirələrdə yaşamaq yazılıb. Qardaşının qızına o, ad qoyub, oğluna isə şəhidin adı verilib.

Bu il sentyabrın 5-də valideynləri Zəfər yolu ilə Şuşaya gediblər. Cahangirin şəhid olduğu ərazini ziyarət ediblər. Şuşaya səfərin təəssüratlarını, həmin anlarda yaşadıqları hissləri onlar heç vaxt unutmayacaqlar.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 13.11.2023 17:39 Page 1



## HƏRBİ PROKURORLUQ TƏRƏFİNDƏN HÜQUQİ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB



Hərbi Prokurorluq hərbçilərin hüquqi maarifləndirilməsi işini davam etdirir. Bu istiqamətdə növbəti tədbir Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsində keçirilib.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən, cari ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edildiyini vurğulayan hərbi prokuror böyük köməkçisi-Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən, dövlətçilik tariximizdəki müstəsna rolundan, dünya siyasətinə verdiyi töhfələrdən danışıb.

F.Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son 20 ildə əldə etdiyi möhtəşəm uğurlardan, o cümlədən Vətən müharibəsində qazanılmış tarixi Qələbədən, antiterror tədbirlərindən, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən sürətli bərpa-quruculuq işlərindən, dövlətimizin bütün sahələrdə sürətli inkişafından və bu uğurların qazanılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın töhfələrindən, xalqımızın əzmkarlığından və Silahlı Qüvvələrin qüdrətindən bəhs edib.

Polkovnik Vurğun Abbasov, ədliyyə kapitanı Həsən Baxşəliyev, hüquq müdafiəçisi-hüquq üzrə magistr Ceyhun İbrahimov çıxışlarında Azərbaycanın qazandığı uğurlardan söz açıblar.

Tədbirdə hərbçilərin hüquqi biliklərinin artırılması məqsədilə maarifləndirici söhbət aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

**AZƏRTAC**

## UŞAQLARIN QIZIL PAYIZ SEVİNCİ...



Hər fəslin bənzərsiz gözəlliyi olduğu kimi, öz əhval-ruhiyyəsi də vardır. Payız qışın xəbərçisidir. Bu fəsildə havalar yavaş-yavaş soyuyaraq insanları qışa hazır olmağa çağırır. Gözəlliyi ilə gözoxşayan bu fəsil bərəkəti ilə də könül oxşayır. Payız bolluq fəslidir. Bağça-bağların üzümü, alması, armudu, heyvası, narı, xurması yetişib dada gəlir bu fəsildə. Məhz buna görə də bu fəslə rəmzi mənada "qızıl payız" deyirlər.

Məlumat üçün qeyd edək ki, noyabrın 3-də 25031 saylı hərbi hissənin ərazisində fəaliyyət göstərən uşaq bağçasında payız fəslinə həsr olunan "Məhsul bayramı" adlı tədbir keçirilib. Tədbirdə qızıl payızın bolluq və bərəkət fəsli olması barədə məlumat verilib. Daha sonra hərbi qulluqçularımızın azyaşlı övladları tərəfindən payız fəslinə həsr olunan səhnəciklər nümayiş etdirilib, şeirlər səsləndirilib. Musiqi nömrələrinin ifa olunduğu tədbir nur çöhrəli övladlarımızın rəqsləri ilə də yaddaqalan olub.

**25031 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## "DÖYÜŞ HAZIRLIĞININ ARTIRILMASI VƏ HƏRBİ İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİ BAŞLICA VƏZİFƏMİZDİR"



12318 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri patrul taborunun patrul bölüyüdür. Bölük öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşaraq, onları peşəkarlıqla yerinə yetirir. Şəxsi heyətin qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.

Əldə olunmuş nailiyyətlərdə bölük komandiri baş leytenant Qanboy İbrahimovun əməyi danılmazdır. O, keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin bir məqsədə - döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini bildirdi: "Bölüyün öz vəzifələrini keyfiyyətlə yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bu, bölüyün döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq, qoyulan tapşırıqları düzgün və vaxtında icra etməkdir".



Bölükdə keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan bölük komandiri şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. O, bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Şahin Mehtiyevin əməyini xüsusilə qeyd etdi.

Bölüyün ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən hərbi qulluqçulardan baş çavuş Aslan Aslanov, çavuş Ömər Sarıyev, baş əsgərlər Natiq Gəncəliyev, Səbuhi Dadaşov və Rafət Bağırzadənin adlarını çəkərək, onların funksional vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini vurğuladı. Baş leytenant Q.İbrahimov hərbi xidmətə daim əzmkarlıq və nümunə göstərməyi bacaran patrul bölüyünün bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Şahin Cəfərzadə**




*NÜMUNƏVİ XİDMƏT*

## ETİMADI DOĞRULDAN BAŞ ƏSGƏR



Baş əsgər Kənan Allahverdiyev 16076 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən, nizam-intizamlı və bacarıqlı hərbi qulluqçularındandır. Öz vətənpərvərliyi ilə seçilən hərbi qulluqçu komandirlərinin, əsgər yoldaşlarının hörmət və etimadını qazanıb.

O, 2004-cü ilin mart ayının 3-də Mingəçevir şəhərində anadan olub. 2019-cu ildə bu şəhərdə yerləşən 15 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirib və Mingəçevir Turizm Kollecinə qəbul olunub. 2022-ci ilədək kollecdə iaşə müəssisələrinin servisi ixtisası üzrə təhsil alıb. 2015-ci ildən idmanın cüdo növü ilə məşğul olan hərbi qulluqçumuzun nailiyyətləri də var. 2022-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədən sonra xidmətini 16076 saylı hərbi hissənin mühafizə bölüyündə davam etdirir.

Kənan Daxili Qoşunların sıralarında Vətənə xidmət etməyi özü üçün ən müqəddəs vəzifə hesab edir. Hərbi biliklərə xüsusilə maraq göstərir. Bunun nəticəsidir ki, baş əsgər K.Allahverdiyev istənilən çətinliyin öhdəsindən lazımınca gəlir. Xidmətin məsuliyyətini dərindən dərk edərək üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşır.

Sıralarımızda onun kimi məsuliyyətli və bacarıqlı hərbi qulluqçular çoxdur.

**16076 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## NÜMUNƏVİ VƏ MƏSULİYYƏTLİ ANBAR RƏİSİ



Baş çavuş Zamiq Mikayılov 99713 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularındandır. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan silahdaşımız artıq 13 ildir ki, həqiqi hərbi xidmətdədir.

O, 1983-cü il yanvarın 9-da Ucar rayonunun Qaradağlı kəndində anadan olub. 1989-2000-ci illərdə orta təhsilini böyüyüb boya-başa çatdığı doğma kənd məktəbində alan Zamiq müddətli həqiqi hərbi xidmətini 2001-2003-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Özünün dediyinə görə, bir müddət mülki təşkilatlarda işləməsinə baxmayaraq, hələ uşaqlıq illərindən hərbi formaya sevgisi, hərbçi peşəsinə rəğbəti onu hərbi xidmətə həvəsləndirib. Məhz bu arzusunu reallaşdırmaq məqsədilə 2010-cu ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına müraciət edib və müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Hazırda hərbi hissədə əşya anbarının rəisi vəzifəsində xidmət edir.

Vəzifələrinin icrasına layiqincə yanaşan hərbi qulluqçu Daxili Qoşunlarda xidmətilə fəxr etdiyini bildirdi.

**kapitan Nigar Ağayeva**

## ŞƏXSİ HEYƏTİN SAĞLIQ DURUMU QƏNAƏTBƏXŞDİR



Tibb xidməti kapitanı Günel Nəsirli 1984-cü il oktyabrın 27-də Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1991-ci ildə Bakı şəhərinin Suraxanı rayonunda yerləşən 141 saylı tam orta məktəbin birinci sinfinə gedib, 2001-ci ildə isə 11-ci sinfini uğurla başa vurub. Məhz həmin ildə Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olunub. 2007-ci ildə ali təhsilini bitirən Günel 2008-ci ilədək Bakı şəhər 3 saylı Mərkəzi Klinik Xəstəxanasında həkim kimi fəaliyyət göstərib.

Daxili Qoşunlarda həqiqi hərbi xidmətə gəlişi 2013-cü ilə təsadüf edir. Belə ki, həmin ildən bu günə kimi 99713 saylı hərbi hissədə, Daxili Qoşunların Hərbi Qospitalında müxtəlif vəzifələrdə xidmət edən tibb xidməti kapitanı G.Nəsirli hazırda 17077 saylı hərbi hissədə tibb xidmətinin rəisi vəzifəsindədir.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan zabit savadı və bacarığı ilə hərbi qulluqçuların sağlıq durumunu düzgün qiymətləndirir. Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan həkim uçuşların və paraşütlə tullanmaların tibb təminatının keyfiyyətinə, uçuş heyətinin sağlamlığının və iş qabiliyyətinin qorunub saxlanılmasına yönəldilmiş tədbirlərin effektivliyinə görə tam cavabdehlik daşıyır.

Tibb xidməti kapitanı G.Nəsirli ixtisaslı həkim kimi kollektivdə də hərbi qulluqçuların hörmətini qazanmağı bacarıb. Öz tibbi biliklərini artıraraq müasir elmi yenilikləri izləyir, dünyagörüşünü zənginləşdirmək üçün hər zaman əzmlə çalışır.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə müdafiə sənayesinin ixracatı 4 milyard dolları ötüb



Türkiyə İxracatçılar Məclisi (TİM) müdafiə və aviasiya sənayesi sektorunun 2023-cü ilin oktyabr ayında ixrac etdiyi məhsulların dəyərini açıqlayıb. "Poliqon" TİM-ə istinadən xəbər verir ki, Türkiyənin müdafiə və aviasiya sənayesi şirkətləri cari ilin oktyabrında 514.7 milyon ABŞ dolları dəyərində məhsul ixrac ediblər.

Ötən ilin eyni dövrü ilə müqayisədə (2022-ci il oktyabr – 464.5 milyon ABŞ dolları) 2023-cü ilin oktyabr ayında ixrac olunan məhsulların dəyəri artıb.

Qeyd edək ki, 2023-cü il üçün ixracat hədəfi 6 milyard dollar olaraq müəyyənləşdirilən Türkiyə müdafiə sənayesinin cari il üzrə hazırkı ixracı 4.3 milyard ABŞ dolları təşkil edir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000